Kaspi.-2019.-6-8 iyul.-S.9.

# “LiFFt” festivallar festivalının seçim müsabiqəsi




Sentyabrın 30-dan oktyabrın 4-dək Bakı şəhərində keçiriləcək Avrasiya materikinin ədəbiyyat üzrə IV “LiFFt” festivallar festivalının seçim müsabiqəsinə start verilib. Müsabiqədə iştirak üçün ərizələrin qəbulu avqustun 31-dək davam edəcək.

AZƏRTAC xəbər verir ki, 18 yaşına çatmış hər bir yazar festivalın seçim müsabiqəsində iştirak edə bilər. Bunun üçün qeydiyyatdan keçərək iştirak ərizəsini doldurmaq, ingilis və rus dillərində təyin olunan həcmdə nəsr və nəzm nümunələrini münsiflər heyətinə təqdim etmək lazımdır.

Müsabiqədə iştirak şərtləri http://lifft.az/ saytında http://lifft.az/index.php/register keçidində yerləşdirilib.

Avrasiya materikinin ədəbiyyat üzrə 4-cü “LiFFt” festivallar festivalı Birləşmiş Millətlər Təşkilatının himayəsi altında, “LiFFt” Beynəlxalq Humanitar Fondu, Avrasiya Millətlər Assambleyası və Azərbaycan tərəfdən Heydər Əliyev Fondunun həmtəşkilatçılığı, Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi və Bakı Kitab Mərkəzinin tərəfdaşlığı ilə keçirilir.

“LiFFt” 98 ölkə üzrə 5 milyard əhalinin yaşadığı geniş bir ərazini əhatə etdiyindən dünyanın ən kütləvi ədəbiyyat festivallarından hesab olunur.

Xatırladaq ki, 2018-ci ildə Rusiyanın Soçi şəhərində keçirilən Avrasiya materikinin ədəbiyyat üzrə III “LiFFt” festivallar festivalında 27 ölkənin 170 yazarı arasında Azərbaycan yazıçısı Varis Yolçuyev qalib olub. Qaydalara uyğun olaraq, növbəti festival qalibin vətənində təşkil olunduğundan bu il tədbirə Bakı ev sahibliyi edəcək.

Dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə festivalın Təşkilat Komitəsi IV Bakı festivalının İmadəddin Nəsiminin adı ilə bağlanması barədə qərar qəbul edib.

Festivalda Nobel komissiyasının, beynəlxalq PEN klubun və Yazıçılar Gildiyasının nüfuzlu şəxsləri də qonaq qismində iştirak edəcəklər.

Festivalın Azərbaycan üzrə spikerləri Anar, Elçin, Kamal Abdulla, Ramiz Fətəliyev, Nizami Cəfərov, Elmira Axundova, Ramiz Rövşən, Afaq Məsud və Çingiz Abdullayev, Azərbaycan üzrə koordinatorları Nigar Həsənzadə, Günel Rzayeva və Əlibala Məhərrəmzadə olacaq.